VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 165-173
Telif Haqqı©Varlıq Dergisi

İki Fərqli Kimlik və Mədəniyəti Qarşılaşdıran Poetik Mətn: "Sən Osan, Mən də Buyam"

• **Prof. Dr. Esmira FUAD** [1]

Xülasə: Bu ictimai-siyasi və ədəbi əhəmiyətli qarşılaşdırmanı poetikləşdirən Güney Azərbaycan'ın yetirdiyi böyük aydın-pedaqoq, ədəbiyatşünas, tarixçi, milli mədəni fəal kimi tanınan Məhəmməd Tağı Zehtabi'dir. XX yüzilin ikinci yarısında Güney Azərbaycan'da yetişən görkəmli alim hələ gənc yaşlarından öz xalqının azadlığı və milli varlığı uğrunda mübarizə meydanına atılmışdır. 1923-cü ilin oktyabrında Təbriz yaxınlığındakı Şəbistər qəsəbəsində anadan olan Zehtabi 1946-cı ildə Azərbaycan Milli Hökuməti dövründə Güney Azərbaycan'da açılmış Təbriz Üniversitəsi'nin ilk məzunlarından olub. Üniversitə təhsilini başa çatdırmaq və İran'dakı rejimin siyasi təqiblərindən yaxa qurtarmaq üçün Şimali Azərbaycan'a mühacirət edib. 1979-cu ildə Pəhləvi rejimi yıxıldıqdan sonra Təbriz'ə qayıdıb. Milli fəal Azərbaycan Demokrat Firqəsi'nin üzvü olub və Firqə'nin 1-ci qurultayında Şəbüstər bölgəsinin nümayəndəsi kimi iştirak edib.

Açar sözlər: Məhəmməd Tağı Zehtabi, Cənubi Azərbaycan, Azərbaycan Türkcəsi, Azərbaycan ədəbiyatı, şeir.

[1] AMEA Ədəbiyat Ənstitusu, filoloji elmləri doktoru, Əbədi Turan Kitab fondunun rəhbəri, e-post: esmirafuad@gmail.ru; ORCİD: 0000-0002-8794-608X

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 165-173
Telif Haqqı©Varlıq Dergisi

İki Farklı Kimlik ve Kültürü Karşılaştıran Poetik Metin: "Sen Osun, Ben de Buyum"

• **Prof. Dr. Esmira FUAD** [1]

Özet: Bu toplumsal-siyasi ve edebî açıdan önem taşıyan karşılaştırmayı şiirleştiren kişi, Güney Azerbaycan'ın yetiştirdiği büyük aydın, eğitimci, edebiyat bilimci, tarihçi ve millî kültür faali olarak tanınan Muhammed Taki Zehtabi'dir. XX. yüzyılın ikinci yarısında Güney Azerbaycan'da yetişen seçkin bilim insanı, daha genç yaşlarından itibaren halkının özgürlüğü ve millî varlığı uğrunda mücadeleye atılmıştır.

1923 yılının Ekim ayında Tebriz yakınlarındaki Şebister kasabasında doğan Zehtabi, 1946 yılında Azerbaycan Millî Hükûmeti döneminde Güney Azerbaycan'da açılan Tebriz Üniversitesi'nin ilk mezunlarından biri olmuştur. Üniversite eğitimini tamamlamak ve İran'daki rejimin siyasi takibatından kurtulmak amacıyla Kuzey Azerbaycan'a göç etmiştir.

1979 yılında Pehlevi rejiminin yıkılmasının ardından Tebriz'e dönmüştür. Millî bir faaliyet adamı olan Zehtabi, Azerbaycan Demokrat Fırkası'nın üyesi olmuş ve Fırkanın I. Kurultayı'na Şebister bölgesinin temsilcisi olarak katılmıştır.

Anahtar sözcükler: Muhammed Taki Zehtabi, Güney Azerbaycan, Azerbaycan Türkçesi, Azerbaycan edebiyatı, şiir.

[1] Azerbaycan Milli Bilimler Akademisi Edebiay Enstitüsü; Filoloji Bilimler Doktoru, Ebedî Turan Kitap Vakfı Başkanı; E-posta: esmirafuad@gmail.ru; ORCİD: 0000-0002-8794-608X

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 165-173
Telif Haqqı©Varlıq Dergisi

A Poetic Text Comparing Two Different Identities and Cultures: "You Are That, and I Am This"

• **Esmira FUAD** [1]

Abstract: This socio-political and literary comparison was rendered into poetic form by Mohammad Taghi Zehtabi, one of the prominent intellectuals produced by South Azerbaijan, known as an educator, literary scholar, historian, and national-cultural activist. A distinguished scholar who emerged in South Azerbaijan in the second half of the twentieth century, Zehtabi became involved from an early age in the struggle for the freedom and national identity of his people.

Born in October 1923 in the town of Shabestar, near Tabriz, Zehtabi was among the first graduates of Tabriz University, which was established in South Azerbaijan during the period of the Azerbaijan National Government in 1946. In order to complete his university education and escape political persecution by the regime in Iran, he emigrated to Northern Azerbaijan. Following the fall of the Pahlavi regime in 1979, he returned to Tabriz.

As a national activist, Zehtabi was a member of the Azerbaijan Democratic Party (Firqah) and participated in the Party's First Congress as a representative of the Shabestar region.

Keywords: Mohammad Taghi Zehtabi, South Azerbaijan, Azerbaijani Turkic, Azerbaijani literature, poem.

[1] Institute of Literature of the Azerbaijan National Academy of Sciences (ANAS), Doctor of Philological Sciences, Head of the Əbədi Turan Book Foundation, Email: esmirafuad@gmail.ru; ORCİD: 0000-0002-8794-608X

VARLIQ واریق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 165-173
Telif Haqqı©Varlıq Dergisi

متنی شاعرانه در مقایسه دو هویت و فرهنگ متفاوت: «تو آنی، من هم اینم»

• **پروفسور دکتر اسمیرا فواد**[1]

چکیده: این مقایسه که از نظر اجتماعی ـ سیاسی و ادبی دارای اهمیت است، توسط محمدتقی زهتابی، از روشنفکران برجسته پرورش‌یافته در آذربایجان جنوبی که به‌عنوان آموزگار، پژوهشگر ادبیات، مورخ و فعال فرهنگی ـ ملی شناخته می‌شود، به زبان شعر درآمده است. این دانشمند برجسته که در نیمه دوم قرن بیستم در آذربایجان جنوبی بالید، از همان سال‌های جوانی به عرصه مبارزه برای آزادی و موجودیت ملی مردم خود گام نهاد.

زهتابی در اکتبر سال ۱۹۲۳ در شهر شبستر، در نزدیکی تبریز، به دنیا آمد. او در سال ۱۹۴۶ و در دوره حکومت ملی آذربایجان، از نخستین فارغ‌التحصیلان دانشگاه تبریز بود که در آذربایجان جنوبی تأسیس شده بود. وی برای تکمیل تحصیلات دانشگاهی و رهایی از تعقیب‌های سیاسی رژیم ایران، به آذربایجان شمالی مهاجرت کرد.

پس از سقوط رژیم پهلوی در سال ۱۹۷۹، زهتابی به تبریز بازگشت. او به‌عنوان یک فعال ملی، عضو فرقه دموکرات آذربایجان بود و در نخستین کنگره این فرقه، به‌عنوان نماینده منطقه شبستر شرکت کرد.

کلیدواژه: محمدتقی زهتابی، آذربایجان جنوبی، زبان ترکی، ادبیات آذربایجان، شعر.

[1] آکادمی ملی علوم آذربایجان، انستیتوی ادبیات؛ دکترای علوم زبان‌شناسی و ادبیات، رئیس بنیاد کتاب «توران ابدی»؛ ایمیل: esmirafuad@gmail.ru اورسید: 0000-0002-8794-608X

VARLIQ والريق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 165-173
Telif Haqqı©Varlıq Dergisi

İki Fərqli Kimlik və Mədəniyəti Qarşılaşdıran Poetik Mətn: "Sən Osan, Mən də Buyam"

● Prof. Dr. Esmira FUAD

Anglo-İrland əsilli Amerikalı politoloq, Kornell Üniversitəsinin profesoru, millət anlayışını "xəyali icma" kimi karakterizə etməsi ilə məşhurlaşan Benedikt Anderson'un "Vətən" sözünün içəriyini anladan: "*Vətən odur ki, onun yolunda şərəflə ölmək olar. Bu, elə bir dəyərdir ki, öz həyatını "Uf!" demədən ona qurban vermək olar. Vətənin nümayəndəsi - əsas ideolojik, etik və estetik sembolu Ḍ bəlirsiz əsgərin məzarıdır...*" fikirləri çağımızın bütöv Azərbaycan Türklərinin, oğul və qızlarının Vətənə baxışı ilə və otuz ilə yaxın Erməni əsarətində qalmış Qarabağ'ın azad olunması uğruna canını fəda edən, ölümün gözünə dik baxan ərənlərimizin həmin anda düşündikləri ilə üst-üstə düşür… (Fuad, 2024)

Azərbaycan'ın güneyində və quzeyində adı eyni sevgi və ehtiramla anılan milli ziyalılarımızdan" (Aydınoğlu, 2023) - Güney Azərbaycan milli-mədəni hərəkatının görkəmli simalarından biri, "coşğun vətənsevər və millət fədaisi" kimi dəyərləndirilən, alim, tarixçi, dilçi, şair və publisist olaraq tanınan Məhəmmədtağı Zehtabi (Kirişçi) də dönməz əqidəsinə, milli məfkurənin daşıyıcısı olduğuna görə evində şübhəli bir şəkildə can verdiyi zaman, əminliklə deyə bilərik ki, eyni düşüncədə olub, ölümün gözünə dik baxıb. El, millət, amal uğruna şəhid olub,

fədakarlıq örnəyi olduğunu təsdiqləyib və şəhadətə yüksəlib. Çünki ömür yolu Azərbaycan'ın bütövlük məfkurəsinin formalaşması uğrunda mübarizənin ön sıralarında keçən profesor M.T. Zehtabi "İran Türklərinin Əski Tarixi" adlı kitabı ilə Azərbaycan tarixini saxtalaşdıranların mənfur niyətlərini ifşa edərək, Pəhləvi rejiminin Güney Azərbaycan Türklərinə qarşı yürütdüyü asimilasiyon siyasətinin iç üzünü açmış, saxta tarixçiliyin qondarma müəlliflərini başı üstündə qoymuşdu. Tarixi faktları olduğu kimi təqdim edən bu orijinal araşdırma, təsadüfi deyil ki, "*Güney Azərbaycan Türklərinin tarixçiliyində dönüş nöqtəsi hesab olunur. Güney Azərbaycan Türklərinin milli oyanışında profesor Zehtabi'nin rolu və təsiri çox geniş və dərindir.*. (Kulis.az).

Tarixçi alimin *"ölünmsüz əsəri olan "İran Türklərinin Əski Tarixi" adlı kitabının Türkiyə Türkcəsinə uyğunlaşdırılaraq nəşr olunması"* (Gunaz.tv) da təsadüfi deyil...

Məhəmməd Tağı Zehtabi (Kirişçi) ölünmsüzlüyünü Ana dilinin qoruyucusu olmaqla hələ sağlığında ikən qazandı... Fədakar alim bilirdi, dərindən-dərinə anlayırdı ki, dil millətin varlığının pasportudur. Dilə qoyulan qadağalar xalqın daxilindəki milli oyanış və etiraz dalğasını daha da alovlandırır. Təzyiq nə qədər güclü olarsa, daxili partlayış və azadlıq arzusu bir o qədər sarsıdıcı olar, gerçəyini bütün ruhu ilə dərk edirdi. Ona görə də Pəhləvi rejiminin Türk dilinə qənim kəsilməsinə qarşı açıq etirazını bildirən "Sən osan, mən də buyam" adlı şeirini Təbriz'də olarkən - 22 Azər 1325//1946-cı ildə yazıb və iki fərqli kimlik və mədəniyəti uğurlu şəkildə qarşılaşdırıb. Bu eşsiz əsər həm Şahlıq rejimi dönəmində, həm də İslam rejimi zamanı dillər əzbərinə çevrilib:

"Su" deyibdir mənə əvvəldə anam, "ab" ki, yox,
"Yuxu" öyrətdi uşaqlıqda mənə, "xab" ki, yox...
İlk dəfə ki, "çörək" verdi mənə, "nan" demədi,
Əzəlində mənə "duzdanə" "nəməkdan" demədi.
Anam "əxtər" deməyibdir mənə, "ulduz" deyib o,
Su donanda deməyibdir "yəx"di bala, "buz" deyib o.
"Qar" deyib, "bərf" deməyib, "dəst" deməyib, "əl" deyib o,
Mənə heç vaxt "biya" söyləməyib, "gəl" deyib o.
Yaxşı xatırlayıram, yaz günü axşam çağılar,
Bağçanın günçıxanında ki, ılıq gün yayıla.
"Gəl deyərdi darayım başıvı, ey nazlı bala,
Gəlməsən gər, bacıvun astaca zülfün dararam".
O deməzdi ki, "biya şane zənəm bir səri to,
Gən nəayı be zənəm şane sər-e xahər-e to".
Bəli, daş yağsa da göydən, sən osan, mən də buyam,
Var sənin başqa anan, vardı mənim başqa anam.
Özümə məxsus olan başqa elim vardı mənim,
Elimə məxsus olan başqa dilim vardı mənim.
İstəsən qardaş olaq, bir yaşayaq, birlik edək,

Veribən qol-qola bundan sonra bir yolda gedək.
Əvvəla, özgə küləklərlə gərək axmayasan,
Saniyən, varlığıma, xalqıma xor baxmayasan.
Yoxsa gər zor deyəsən, millətimi xar edəsən,
Gün gələr səfhə çönər, məcbur olarsan gedəsən!
(Azerbaycan Ruznamesi)

Güney Azərbaycan milli hərəkatının və ana dili uğrunda mübarizənin rəmzi hesab olunan, ana dilinin saflığını, milli kimliyi və Fars şovinizminə qarşı kəskin etirazı bədii şəkildə ifadə edən "Sən osan, mən də buyam!" qəzəli böyük bir siyasi və tarixi uzaqgörənliyin sonucu olaraq ərsəyə gəldi. Şair M.T. Zehtabi zülm və basqı üzərində qurulan rejimlərin, asimilasiyon siyasətlərinin gec-tez iflasa uğrayacağını bilirdi. Onu da yaxşı bilirdi ki, əgər bir millətin haqqı tapdalanarsa, onun dilinə qadağalar qoyularsa, o millətin daxili müqaviməti getdikcə artaraq partlayışa səbəb olacaq və tarixin çarxı tərsinə fırlanacaqdır. Ona görə də şeirin özəlliklə son beytinin misraları daha kəskin və xəbərdarlıq xarakterlidir:

Yoxsa gər zor deyəsən, millətimi xar edəsən,
Gün gələr səfhə çönər, məcbur olarsan gedəsən!

Bu beyt eyni zamanda tarixi xəbərdarlıq və o qədər də uzaq olmayan gələcəyin proqnozudur...

"Var sənin başqa anan, vardı mənim başqa anam" misrası ictimai-fəlsəfi yüklüdür, iki fərqli kimlik və mədəniyətin açıqca qarşılaşdırılmasıdır. Əslində misradakı "Ana" obrazı sembolik karakter daşıyır. "Ana" "Vətən", "millət", "mədəniyət", milli mənsubiyət mənalarını qapsayır. Şair qarşı tərəfə - Fars şovinizminə və asimilasiyon siyasəti yürüdən millətçilərə xatırladır ki, biz eyni kökdən, eyni mədəniyətdən deyilik. Hər bir xalqın öz tarixi, öz dili və öz coğrafiyası var. Birini digərinin içində əritmək, yox etmək təbiət qanunlarına ziddir və etnik cinayətdir və bu zorakılıq zamanı gəlincə, bumeranq kimi özünə qarşı yön alacaqdır.

Ana dilinin saflığını qorumaq misiyonuna və beşikdən gələn səslərə, laylay dilinə sadiq qalan şair M.T. Zehtabi şeirin ilk beytlərindən bədii qarşıdurma-antitez üsulundan istifadə edir. O, Azərbaycan Türkcəsindəki sözlərlə həmin sözlərin Fars dilindəki ekvivalentlərini qarşı-qarşıya qoyur: *"su və ab, yuxu və xab, çörək və nan, ulduz və əxtər, buz və yəx, qar və bərf, əl və dəst, nəhayət, gəl və biya" kimi...* Bu tutuşdurma sadəcə kəlmələrin lüğətdə ifadəsini tapan fərqi deyil. Şair bu tutuşdurma ilə açıqlayır ki, insanın ana dili onun fitrətinə, hələ beşikdə ikən anasının laylası ilə qanına işləyir. İnsan dünyanı anasının ona öyrətdiyi dil ilə dərk edir. *"Mənə dil açanda ab, nan, bərf, dəst, nəməkdan, yəx, biya demədilər"* deməklə, Zehtabi onun Ana dilinin, milli təfəkkürünün süni (yapay) şəkildə başqa bir mədəniyətlə əvəzlənə bilməyəcəyini vurğulayır.

“Sən osan, mən də buyam!” qəzəli bərabərhüquqlu, qardaşcasına birgəyaşayışa çağırışdır. Ana dilinin qoruyucusu misiyonunu şərəflə yerinə yetirən təəssübkeş ziyalı kimi, M.T. Zehtabi təcavüzkar və ya nifrət dolu bir dil işlətmir. Əksinə, o, sülh və qardaşlıq, bərabərlik təklif edir, qardaşlığın şərtlərini açıqlayır: “İstəsən qardaş olaq, bir yaşayaq, birlik edək...” Və bu qardaşlığın çox ciddi və qəti şərtləri var. Ən əvvəl milli mənliyinə hörmətlə yanaşmağı öyrənməlisən ki, “Varlığıma, xalqıma xor baxmayasan...”

Şairin müstəqil düşüncə və daxili iradəsi isə *“Özgə küləklərlə gərək axmayasan...”* misrasında daha çox özünü göstərir. M.T. Zehtabi anlatmaq istəyir ki, müstəqil düşüncəyə sahib olmaq və daxili iradı nümayiş etdirmək üçün gərək imperiya ambisiyalarından və yad təsirlərdən tamamilə uzaq olasan...

Bu poetik açıqlamaları ilə şair bəyan edir ki, gerçək qardaşlıq və birlik yalnız bərabərhüquqlu şərtlərlə, bir-birinin dilinə və varlığına hörmət etməklə mümkündür. Bir tərəfin özünü digərindən üstün görməsi qardaşlıq yox, əsarətdir.

“Sən osan, mən də buyam!” qəzəli olduqca sadə bir dil ilə qələmə alınıb. Bu dil xalq dilinə yaxın və axıcıdır. Ananın uşağı çağırma səhnəsi-bədii lövhə şeirə xüsusi bir səmimiyət və emosionallıq (duyqusallıq) gətirir.

Şeir boyu davam edən Türk və Tars sözlərinin qarşıdurması düşüncənin oxucuya birbaşa və dərindən çatmasına kömək edir.

Şeir klasik əruz vəzninin ritmik imkanlarından və güclü qafiyə sistemindən istifadə edilməklə yazılıb ki, bu da onun şüarvari, yaddaqalan və gürsəsli (tribun poeziyası) olmasını təmin edir.

Məhəmmədtağı Zehtabi’nin biyoqrafi yazarları bildirirlər ki, 1998-ci ilin dekabrın 23-də Avropa səfərindən qayıtdıqan bir gün sonra, milli haqlar uğrunda dönməz mübariz, məfkurə qəhrəmanı sayılan bu nadir ziyalı Şəbüstər’dəki ata-baba mülkündə şübhəli şəkildə dünyasını dəyişib. Onun səpdiyi toxumlar isə yalnız İran Türkləri arasında deyil, Türk dünyasında da yayılıb cücərir.

Sonuç

Nəticə olaraq deyə bilərik ki, Məhəmməd Tağı Zehtabi Güney Azərbaycan’ın 20-ci əsr ictimai-mədəni və elmi fikir tarixində mühüm yer tutan çoxşaxəli şəxsiyətlərdən biri idi. Onun alim, dilçi, tarixçi, ədəbiyatşünas, şair və maarifçi kimi fəaliyəti vahid bir məqsəd Ḍ Azərbaycan xalqının tarixi hafizəsinin, milli-mədəni kimliyinin və ana dilinin qorunması və inkişaf etdirilməsi düşüncəsi ətrafında birləşir.

M.T. Zehtabi elmi araşdırmalarında Azərbaycan Türkcəsinin tarixi və dil quruluşu, Azərbaycan xalqının keçmişi və milli-mədəni irsi ilə bağlı məsələlərə xüsusi diqqət yetirmiş, bədii yaradıcılığında isə Vətən, ana dili, milli birlik, azadlıq və xalqın taleyi kimi mövzuları ön plana çıxarmışdır.

Zehtabi'nin irsi yalnız bir alimin və ya şairin yaradıcılığı kimi deyil, Güney Azərbaycan'da milli-mədəni düşüncənin formalaşması prosesinin mühüm tərkib hissəsi kimi qiymətləndiriləbilər. Onun əsərlərində elm və ədəbiyat bir-birini tamamlayaraq milli hafizənin qorunmasına xidmət edir. Bu baxımdan Məhəmməd Tağı Zehtabi yaradıcılığı Güney Azərbaycan ədəbiyatında ana dili və milli kimlik probleminin öyrənilməsi üçün mühüm elmi-bədii mənbədir.

Qaynaqlar

FUAD, Esmira (2024). *Güney Azərbaycan Etnokulturoloji Dəyərlər Diskursunda*. Bakı: Elm və Təhsil.

AYDINOĞLU, Tahir (2023, 24 avqust). "Güneydə Milli Haqlar Uğrunda Dönməz Mübariz." *Xalq qəzeti*. Erişim adresi: Xalq qəzeti _ makale (Erişim: 25.09.2026).

RƏHMANİFƏR, Məhəmməd (2025, 10 mart). "İran'da Azərbaycanlı Kimliyi Uğrunda Vuruşan Tarixçilər Ḍ Araşdırma." *Kulis.az*. Erişim adresi: Kulis.az _ makale (Erişim: 25.09.2026).

GÜNAZ TV. Erişim adresi: GünAz TV _ kaynak (Erişim: 25.09.2026).

AZƏRBAYCAN RUZNAMƏSİ (2021, 20 fevral). "Professor Zehtabinin 'Sən osan, mən də buyam' şeiri yaxud ədəbi qiraətçinin cəsarəti." *Azərbaycan Ruznaməsi*. Erişim adresi: Azərbaycan Ruznaməsi _ yazı (Erişim: 25.09.2026).

Esmira FUAD 0000-0002-8794-608X

Prof. Dr. Azerbaycan Milli Bilimler Akademisi Edebiyat Enstitüsü.

Yazı Bilgisi:

Alındığı Tarih: 20 Eylül 2026

Yayına Kabul edildiği tarih: 30 Eylül 2026

E-yayın tarihi: 5 Ekim 2026

Çıktı sayfa sayısı: 9

Kaynak sayısı: 5